AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

# "AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASININ MÜASİR PROBLEMLƏRİ"

**fənni üzrə**

# P R O Q R A M

*(magistr hazırlığı üçün)*

Bakı - 2012

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# "AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASININ MÜASİR PROBLEMLƏRİ"

**fənni üzrə**

# P R O Q R A M

*(magistr hazırlığı üçün)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30 noyabr 2012-ci il tarixli 2151№-li əmri ilə təsdiq edilmişdir.*

**Bakı - 2012**

**Tərtibçi:** *pedaqoji elmlər namizədi, dosent*
**Akif Məmmədov**

**Rəyçilər:** *filologiya elmləri doktoru, professor*
**İkram Qasımov**

*pedaqoji elmlər namizədi, dosent*
**Seyidəli Məmmədli**

©BSU, 2012

## İZAHAT VƏRƏQİ

"Azərbaycan dilinin tədrisi metodikasının müasir problemləri" pedaqoji kadr hazırlayan ali məktəblərin magistratura şöbələrində tədris olunan ən mühüm fənlərdən biridir. Həmin fənn üçün nəzərdə tutulan bu proqram ali pedaqoji məktəblərin "Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası" ixtisası üzrə təhsil alan magistrlər üçün nəzərdə tutulmuşdur. Fənnin tədrisində **əsas məqsəd** Azərbaycan dilinin tədrisi metodikası sahəsində müasir dövrdə həllini gözləyən ən mühüm metidiki problemlərin müəyyənləşdirilməsi və onların həlli yollarının göstərilməsidir. Məlumdur ki, dövlətimiz Azərbaycan dili, onun öyrədilməsi, ümumiyyətlə, məktəblə bağlı qəbul etdiyi sənədlərdə yüksək ixtisaslı müəllim kadrları hazırlamaq sahəsində ali məktəblərin qarşısında mühüm vəzifələr qoymuşdur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında (18 iyun 2001-ci il) Təhsil Nazirliyinə belə bir tapşıtıq verilmişdir: "Azərbaycan Respublikasının Təhsil Nazirliyi orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində təhsilin keyfiyyəti ilə bağlı əsaslı dönüş yaratmaq istiqamətində qəti tədbirlər həyata keçirsin". Həmin göstərişlə əlaqədar artıq xeyli işlər görülmüşdür. Ancaq hər yeni dövr məktəb qarşısında yeni vəzifələr qoyur. Bu gün orta məktəbdə həyata keçirilən ən böyük islahat Azərbaycan Milli Təhsil Konsepsiyası (Kurikulum) ilə bağlı görülən işlərdir. Artıq 2012-2013-cü tədris ilindən V siniflər də kurikulum proqramları ilə işləməyə başlamışdır. Müasir dövrdə Azərbaycan dilinin tədrisi metodikası sahəsində hazırlanan magistrin bu kurikulumların mahiyyəti, xüsusilə Azərbaycan dilinin tədrisi ilə bağlı bu sahədə görülən işlərlə tanışlığı vacibdir. Ona görə də proqram tərtib edilərkən həmin məsələ diqqət mərkəzində saxlanmışdır. Proqramın sonunda fənni tədris edən müəllimlərə və magistrlərə kömək üçün müvafiq ədəbiyyat siyahısı verilmişdir.

Proqramda fənnin tədrisinin aşağıdakı istiqamətlərdə öyrədilməsi nəzərdə tutulmuşdur:

1. Milli Təhsil Konsepsiyasında Azərbaycan dili fənninin yeri və mahiyyətini müəyyənləşdirmək;

2. Əsas və orta təhsil pillələrində Azərbaycan dili üzrə əsas və alt standartların öyrənilməsi;

3. Ümumi və tam orta təhsil pillələrində (V – XI siniflər) fənn kurikulumlarını öyrənmək;

4. Ümumi və tam orta təhsil səviyyələrində Azərbaycan dili üzrə təlim nəticələrinin müəyyənləşdirilməsinin yollarını öyrənmək;

5. Qiymətləndirmənin növləri. Qiymətləndirmə vasitələri.

**1. Milli təhsil Konsepsiyasında (Kurikulumda) Azərbaycan dili fənninin yeri və mahiyyəti.** Milli Təhsil Konsepsiyasının mahiyyəti. İbtidai təhsil pilləsində Azərbaycan dili fənninin əsaslandırılması, fənn üzrə ümumi təlim nəticələri. Əsas təhsil pilləsində Azərbaycan dili fənnin əsaslandırılması, fənn üzrə ümumi təlim nəticələri. Orta təhsil pilləsində Azərbaycan dili fənnin əsaslandırılması, fənn üzrə ümumi təlim nəticələri.

**2. Əsas təhsil pilləsində Azərbaycan dili təliminin məzmun xətləri üzrə təlim nəticələri.** Azərbaycan dili fənni üzrə əsas və alt standartlar. Əsas təhsil pilləsində *dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları* əsas standartlarının mahiyyəti. Hər əsas standarta uyğun alt standartlar.

**3. Ayrı-ayrı siniflər üzrə Azərbaycan dili fənn kurikulumu: V sinif üçün** Azərbaycan dili fənn kurikulumu. Bu sinfin sonunda şagirdin *bilməli, bacarmalı* olduğu məsələlər, yiyələndiyi *vərdişlər.* V sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlra uyğun təlim məqsədləri.

**VI sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yiyələndiyi vərdişlər. VI sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlara uyğun təlim məqsədləri.

**VII sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yiyələndiyi vərdişlər. VII sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar.

**VIII sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yi-yələndiyi vərdişlər. VIII sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlara uyğun təlim məqsədləri.

**IX sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yiyələndiyi vərdişlər. IX sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlara uyğun təlim məqsədləri

**4. Tam orta təhsil pilləsində Azərbaycan dili təliminin məzmun xətləri üzrə təlim nəticələri.** Bu pillədə dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları əsas standartlarının mahiyyəti. Hər əsas standarta uyğun alt standartlar. Təlimin bu mərhələsində siniflər üzrə məzmun standartları. X və XI sinfin sonunda şagirdlərin bilik, bacarıq və vərdişlərinin həcmi.

**X sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yiyələndiyi vərdişlər. X sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlara uyğun təlim məqsədləri

**XI sinif üçün Azərbaycan dili fənn kurikulumu.** Bu sinfin sonunda şagirdin bilməli, bacarmalı olduğu məsələlər, yiyələndiyi vərdişlər. XI sinifdə məzmun xətləri üzrə əsas və alt standartlar, onlara uyğun təlim məqsədləri

**V-XI siniflərdə qiymətləndirmə standartları:** a) dinləyib-anlama və danışma, b) oxu, c) yazı, d) dil qaydaları üzrə qiymətləndirmə standartları.

**5. Qiymətləndirmə sxemi əsasında qiymətləndirmə vasitələrinin hazırlanması.**

**6. Analitik qiymətləndirmə. Holistik qiymətləndirmə.** Bunların mahiyyəti. Azərbaycan dili dərslərində həmin qiymətləndirmə növlərinin tətbiqi. Müvafiq nümunələr üzərində işlər.

**7.Təhsil Nazitliyinin "Kurikulum" jurnalında Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı dərc olunmuş məqalələrin icmalı.**

**8. Azərbaycan dili fənn kurikulumu ilə bağlı mövcud ədəbiyyatın öyrənilməsi.**

## ƏDƏBİYYAT

1. http://www.kurikulum.az - Təhsil Nazirliyinin Kurikulum portalı.

2. Tədris planı və proqramlar. Milli kurikulum. Fənn kurikulumu.

3. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (18 iyun 2001-ci il).

4. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2002-ci il).

5. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (23 may 2012-ci il).

6. R. İsmayılov və b. Azərbaycan dili. V siniflər üçün dərslik, 2012-ci il.

7. R. İsmayılov və b. Azərbaycan dili. V sinif. Müəllim üçün metodik vəsait. 2012-ci il.

8. "Kurikulum" jurnalı (2007 – 2012-ci illər).

9. Azərbayca Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu (V-XI siniflər). 2011-ci il.

Çapa imzalanıb: 03.12.2012.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 0,5 ç.v. Tiraj: 100. Sifariş № 117.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az